**Audit Komitəsinə audit işi sahəsində ali idarəetmə orqanları ilə münasibətlərin təkilinə dair**

# TÖVSİYƏLƏR

Ali idarəetmə orqanları ilə səmərəli əməkdaşlıq qurulması məqsədilə Audit Komitəsinə aşağıdakılar tovsiyə olunur:

1. Ali idarəetmə orqanlarının iclasında müzakirə olunan məsələlərə dair Audit Komitəsinin tövsiyələrinin əldə edilməsi. Bu məqsədlə həmin məsələlər üzrə Audit Komitəsinin daha öncə müvafiq iclas keçirməsi və göstərilən məsələlərin müzakirə olunması məqsədə uyğundur.
2. Audit Komitəsinin illik iş planları ali idarəetmə orqanları ilə razılaşdırılmalıdır. Bunda məqsəd Audit Komitəsinin iş planının ali idarəetmə orqanlarının iş planına müvafiqliyini təmin etməkdir.
3. Ali idarəetmə orqanları Audit Komitəsinin iş planına həm hazırlıq dövründə, həm il ərzində əlavə və dəyişikliklər etmək səlahiyyəti olmalıdır.
4. Audit Komitəsinin sədri ali idarəetmə orqanlarının hər bir iclasında öz fəaliyyətləri barədə məlumat təqdim etməlidir. Bundan başqa, səhmdarların illik ümumi yığıncağının keçirilməsinə hzırlıqla əlaqədar hesabat ili ərzində Audit Komitəsinin gördüyü işlər barəsində müfəssəl hesabat təqdim etməlidir. Hesabatda aşağıdakı məlumatlar olmalıdır:
   - Keçirilmiş iclaslar barədə məlumat;
   - Müzakirə olunmuş məsələlər və hazırlanmış tövsiyələr barədə məlumat;
   - Audit Komitəsinin büdcəsinin yerinə yetirilməsi barədə məlumat (əgər büdcə nəzərdə tutulmuşdursa);
   - Komitə üzvlərinin və bütövlükdə komitənin fəaliyyətinin qiymətləndirilməsinin nəticəsi barədə məlumat;
   - Audit Komitəsinin əhəmiyyətli hesab etdiyi digər məsələlər barədə məlumat.
5. Ali idarəetmə orqanlarının Audit Komitəsinin fəaliyyətinin səmərəliliyinin qiymətləndirməsi məqsədə uyğundur. Bu barədə məlumat şirkətin illik hesabatına daxil edilə və / və ya internet səhifəsində yerləşdirilə bilər.
6. Ali idarəetmə orqanları Audit Komitəsinin işində yüksək səmərəliliyə, məlumatların şəffaflığına, komitənin işinin operativliyinə nail olmaq üçün Audit Komitəsi ilə şirkətin vəzifəli şəxsləri arasında olan işgüzar münasibətlərin reqlamentləşdirilməsini təmin etməlidir.
7. Ali idarəetmə orqanları tələb etməlidir ki, Audit Komitəsi öz iclasının keçirilməsinə 1 həftə qalmış şirkət rəhbərliyinə müzakirə olunacaq məsələlər barədə məlumat təqdim etsin. Bu məsələlər barəsində zəruri sənədlər həmin məlumata əlavə olunmalıdır.
8. Ali idarəetmə orqanları Audit Komitəsi ilə Audit Komitəsinin iclaslarında müzakirə olunan məsələlərlə bağlı müvafiq icraçıların və ya fəaliyyəti müzakirə olunan şəxslərin iştirakını tələb etməlidir.

9. Tövsiyə olunur ki, Audit Komitəsinin bütün sorğuları şirkətin işlər idarəsi vasitəsilə müvafiq şəxslərə təqdim edilsin. Audit Komitəsi üzvlərinin iclasda müzakirə olunan məsələlərlə bağlı hər-hansı birbaşa sualla müraciət məqsədə müvafiq sayılmır.
10. Ali idarəetmə orqanları Audit Komitəsi ilə hər hansı digər, kənar və ya daxili yoxlayıcıların münasibətlərini və əlaqələrini reqlamentləşdirilməlidir.
11. Ali idarəetmə orqanları kənar auditə dair audit hesabatlarının müzakirəsi zamanı Audit Komitəsinin tövsiyələrini nəzərə almalıdır.

Tərtib etdi: Azərbaycan Respublikası

Auditorlar Palatası sədrinin

elmi-metodik məsələlər üzrə müşaviri N.Talıbov